# RAFİQ YUSİFOĞLU YARADICILIĞINDA UŞAQLARA TƏBİƏTƏ SEVGİ İLƏ YANAŞMANIN TƏBLİĞİ

**Ramidə Abbasova**

*AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu, Bakı*
*ramideabbasova87@gmail.com*

Təbiət hər bir insanın qorumalı və sevməli olduğu ən gözəl nemətlərdən biridir. Təbiətin əzəmətinə sevgi ilə yanaşmalıyıq. Onun hər qarışının ayrı bir gözəlliyi və dəyəri var. Biz təbiətə sevgi ilə yanaşmaqla onu daha da gözəlləşdirə bilərik. Ana təbiətin bizə bəxş etdiklərini sevgi və məhəbbətlə qorumalıyıq. Aydındır ki, təbiət bizim və uşaqlarımızın gələcəyidir. Onlara qoyacağımız miraslardan biri də yaşıl mühit olardı. Təbiət gələcəyə və həyata ən böyük hədiyyədir. Təbiətə sevgini uşaqlara kiçik yaşdan aşılamaq lazimdir. Onlarin başa düşdüyü dildə, başa düşdüyü formada şeirlə, nağılla, musiqi ilə sevdirməliyik.

Bu mövzuda uşaq ədəbiyyatının üzərinə böyük yük düşür. Əməkdar mədəniyyət işçisi, filologiya elmləri doktoru, professor, dərin və yüksək intellektual düşüncə sahibi olan Rafiq Yusifoğlu həyatını ədəbiyyata həsr edib... Özü də uşaq ədəbiyyatına... Yaradıcılığa erkən yaşlardan başlamış şairin şeirlərinin böyük bir qismi doğma torpağımıza, onun gözəlliklərinin tərənnümünə həsr edilib. Şair oxucularını xəyalən gah tarixi keçmişimizə, gah təbiətin qoynuna, gah da sehrli uşaq aləminə aparır. Uşaqların həyatını, onların psixologiyasını nəzəri cəhətdən öyrənən müəllifin uşaq şeirləri yığcamlığı, aydınlığı, məna tutumu, obrazlılığı ilə digər şairlərin əsərlərindən əhəmiyyətli dərəcədə fərqlənir. Ömrünün çox hissəsini uşaqların bədii-estetik tərbiyəsinə həsr etmiş, öz orijinal əsərləri ilə kiçikyaşlı uşaqların rəğbətini qazanmış şairin əsərlərində uşaq dünyasının rəngarəng lövhələri məharətlə öz əksini tapıb. Şairin hər hansı təbiət hadisəsini uşaq gözü ilə görüb dəyərləndirməyi bacarması onun poetik üslubu üçün çox səciyyəvi cəhətdir. Onun balacalara həsr etdiyi şeirlərinin qəhrəmanları nəinki uşaqlar, təbiət, heyvanlar, bitkilər, cansız əşyalar, belə desək, istənilən uşağın sevə biləcəyi bütün obyektlərdir. O, qəhrəmanlarını obrazlı, orijinal, biçimli səviyyədə uşaqlara təqdim edir. Şairin böyüklər üçün şeirlərində olduğu kimi, onun uşaqlar üçün yazdığı əsərlərdə də adicə ot, çiçək, böcək, yarpaq, budaq bədii obraz səviyyəsinə qaldırılır. Bu baxımdan onun "Çəməndən ayrılan çiçək", "Balaca qarışqa və buğda ilə dolu zənbil", "Pəncərədən baxan budaq", "Çiçəyin xahişi", "Meşədə yarış", "Qayğıkeş qonşular" və digər şeirləri xüsusilə seçilir:

Budağa bax, budağa,
Hey ucalır, qalxır o.
Boylanıb pəncərədən
Evimizə baxır o.
Deyirəm ki, utanma,
Keç içəri, ay budaq.
Evdə tək darıxıram,
Gəl birlikdə oynayaq.
Yalvarıram nə qədər,
Bəs niyə baxmır sözə?
Yəqin anası ağac
Onu buraxmır bizə.

Vətən torpağının əsrarəngiz gözəlliklərini sevə-sevə qələmə alan şair öz balaca oxucularını təbiətin qoynuna, seyrə çağırır. Şair vətənimizin başı qarlı dağlarından, zümrüd meşələrindən, şəfalı bulaqlarından , bərəkətli çöllərindən məhəbbətlə söz açır:

Birdən göylər hönkürdü,
Yağdı bahar yağışı.
Çəməndə çiçək oldu,
Buludların göz yaşı.

Göründüyü kimi, poetik fikrin sadə və uşaqların anlaya biləcəyi bir tərzdə ifadəsinə nail olan şair bədii təsvir vasitələrindən məharətlə istifadə etmişdir. Şairə görə insan həyatı gözəlləşdirmək üçün yaradılmış ən ali xilqətdir. Bu aliliyi qorumaq naminə insan daimi olaraq işıqlı ideyalarla tərbiyə olunmalıdır. Bu cəhətdən R.Yusifoğlu yaradıcılığında insan tərbiyəsi, xoş amallara çağırış başlıca yer tutur. Nümunə gətirəcəyim aşağıdakı şeirdə şair Yer kürəsinin bütün insanların vətəni olduğunu, bu vətəni hamının qorumağa borclu olduğunu poetik obrazlı misralarla balaca oxucularına belə aşılayır:

Öz qoynunda hamıya,
Yer verib yer kürəmiz.
Gülüstana dönər o,
Bir gül əksək hərəmiz.

R.Yusifoğlu kənd həyatı ilə, təbiətlə yaxından ünsiyyətdə olan, ona öz gözü ilə baxmağı, hər hansı təbiət hadisələrini poetik dillə mənalandırmağı bacaran şairdir. Onun şeirləri bir növ Azərbaycan torpağının poetik xəritəsinə bənzəyir. Rafiq Yusifoğlunun şeirlərinin mövzusu rəngarəngdir. Onun vətən torpağının tərənnümünə, onun otuna, çiçəyinə, dağına, dərəsinə, yurdumuzun tarixi keçmişinə... həsr edilmiş şeirləri öz orijinallığı, obrazlılığı, lakonikliyi ilə diqqəti cəlb edir. Vətənə sevgi, uşaqların yaşları nəzərə alınmaqla ədəbiyyatda hər zaman öz əksini tapmalıdır:

…Deyirəm, təbiət necə
Əlvan çələng toxuyurmuş?!
Şuşada bitən çiçək də
Bülbül olub oxuyurmuş.

Şair təbiəti, dörd fəsli özünəməxsus və eyni zamanda doğal şəkildə təsvir edir. Sanki şair hər misraya öz uşaqlıq illərinin xatirəsini də əlavə edir. Onun "Təbiətin dörd keşikçisi" adlı şeiri bu cəhətdən çox maraqlıdır:

…Ay qış, hara gedirsən? –
Soruşub köks ötürdüm.
Gedirəm bahar gəlsin,
Mən növbəmi bitirdim…
Bahar, Yay, Payız və Qış –
Biz dörd qardaş, dörd fəsil,
Keşiyini çəkirik
Təbiətin müddəsil.

Onun uşaq şeirlərini oxuduqca hiss olunur ki, şair yaxından görüb duyduğu körpələrin həyatından yazır. Təbii ki, bu təsadüfi deyil, Rafiq Yusifoğlunun bədii yaradıcılıqdan başqa, bütün ömrünü uşaqların və gənclərin təlim-tərbiyəsinə həsr etməsi, müasir uşaq ədəbiyyatımızın həyatında mühüm rol oynayan "Göyərçin" jurnalının redaktoru, baş redaktoru işləməsi və "Uşaq ədəbiyyatı" dərsliyinin müəllifi olması ilə bağlıdır. Rafiq Yusifoğlunun öz sözləri ilə desək: "Uşaq ədəbiyyatının başlıca məqsədi yeni nəsil tərbiyə etməkdir. Təbii ki, uşaq ədəbiyyatında ümumbəşəri ideyaların təbliği əsasdır. Ancaq hər bir xalq özü üçün vətəndaş yetişdirir. Öz xalqının mənafeyini nəzərə almaq hər bir insan üçün vacibdir."